# *Kürdəmir:* Əsas məsələ insana qayğıdır

***Sosial-iqtisadi inkişaf, tikinti-abadlıq işləri, xüsusən, ənənəvi kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlər haqqında hazırladığımız qəzet materialını rayonda "ASAN xidmət" mərkəzinin tikilməsi barədə məlumatla başlamaq istəyirdim. Çünki bu layihənin başa çatmasının Kürdəmirin həyatında çox böyük hadisə olacağını hamı kimi mən də yaxşı bilirəm.***




Xatırladım ki, ilin sonunadək istifadəyə verilməsi planlaşdırılan kompleksdə əsas işlər demək olar ki, yekunlaşıb. Burada uşaq əyləncə mərkəzləri ilə yanaşı, istirahət guşələri də fəaliyyət göstərəcək. Mərkəzdəki restoran, yeməkxana, çay evi və "ASAN xidmət"in əsas binasında tikinti işləri başa çatdırılıb, daxili və xarici divarların üzlənməsinə və kommunikasiya xətlərinin montaj işlərinə başlanılıb.

...Rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərovla söhbətimiz zamanı öyrəndim ki, dövlət proqramına əsasən rayonda nəzərdə tutulmuş bütün tədbirlər uğurla həyata keçirilir. Məsələn, bu ilin ilk üç ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsul 10,2 faiz artaraq 77341,4 min manat olub. Yəni cəmi bir il ərzində 10 faizdən çox artıma nail olunub.

Həmsöhbətim qeyd etdi ki, cənab Prezidentin diqqət mərkəzində saxladığı məsələlərdən biri də əhalinin özünüməşğulluğunun təmin olunmasıdır. Bu istiqamətdə aparılan işlər nəticəsində rayonda özünəməşğulluq proqramına cəlb olunmaq üçün 600 nəfərin ərizə - anketi qeydiyyata alınıb, uyğun iştirakçıların yaşayış ünvanlarına baxış keçirilib, birinci mərhələ üçün 16 nəfər seçilərək onlarla təlimlərə başlanılıb.

Təbii ki, Kürdəmirdə həm rayon iqtisadiyyatının inkişaf etdirilməsi, həm də vətəndaşların işlə təmin edilməsi zamanı ən münasib və uyğun istiqamət aqrar sektordur. Taxıl istehsalının artırılması üçün tədbirlər həyata keçirilib. Bu ilin məhsulu üçün ötən ilin payızında 18 min 120 hektarda buğda, 29 min 926 hektarda arpa olmaqla cəmi 48046 hektar sahədə dənlik taxıl əkilib. Biçin mövsümünə 42 kombayn hazırlanır və onlarda təmir işləri aparılır. Rayonda taxıl biçinini vaxtında başa çatdırmaq məqsədi ilə kənardan əlavə 130-dan çox kombayn cəlb edilməsi ilə bağlı iş aparılır, müqavilələr bağlanılır.

Kürdəmirin kənd təsərrüfatı barədə danışarkən ilk növbədə yada düşən pambıqçılıq olur. Öyrəndik ki, rayonda bu il 2 min 809 hektar sahədə pambıq əkilib. Sahələrə 30 mala traktoru, 31 ədəd səpin aqreqatı çıxarılıb. Xatırladaq ki, pambıq səpini ilə əlaqədar sahələrdə 3000 nəfərdən çox işçi qüvvəsi çalışıb. Hazırda birinci kompleks becərmə işləri aparılır. Görülən işlər bu il hər hektardan 20 sentnerdən çox məhsul əldə etməyə zəmin yaradır.

Dövlət başçısının əsas tövsiyə və tapşırıqlarından biri də əkin sahələrinin genişləndirilməsinin diqqətdə saxlanılmasıdır. Rayonda əkinçilik üçün əlverişli olan 14 min 573 hektar qış otlaq sahəsinin təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilib. Bu torpaqlarda artıq 5 aqropark yaradılıb. Aqroparklar tərəfindən həmin sahələrin meliorasiya olunması, müasir suvarma sistemləri qurulması, torpağın yaxşılaşdırılmasına yönəldilən digər tədbirlər görülür. Bu il artıq həmin torpaqların 6831 hektarında taxıl, 1090 hektarında pambıq əkilib, 1800 hektarında qarğıdalı, günəbaxan və sair yazlıq əkinlər aparılıb.

Kürdəmirin ənənəvi kənd təsərrüfatı sahələrindən biri də baramaçılıqdır. Ötən il rayonda 20 min 400 kiloqram barama istehsal edilib. Bu il 33 ton barama istehsalı nəzərdə tutulur. Barama saxlayacaq kümçülər vaxtında müəyyənləşdirilib, kümxanalar hazır vəziyyətə gətirilib, sanitar tədbirlər görülüb. 249 nəfər kümçüyə 825 qutu barama qurdu paylanılıb və onlar müvafiq kağız və digər avadanlıqlarla təmin edilib.

Dövlət başçısının ölkə vətəndaşlarını ilboyu təzə kənd təsərrüfatı məhsulları ilə təmin etmək barədə tövsiyəsi Kürdəmirdə də məsuliyyətlə həyata keçirilir. Bu il tərəvəzin örtülü qruntlarda yetişdirilməsi genişləndirilib, 12 hektarda müasir istixana qurulub, əlavə 7 hektardakı xırda istixanalarda tərəvəz yetişdirilir. Müasir istixanaların sahəsinin 400 hektara çatdırılması üçün hazırlıq işləri aparılır.

Təbii ki, aqrar sektorun istənilən sahəsində uğur qazanmaq üçün ilk növbədə su təminatı yaxşılaşdırılmalıdır. Rayonda torpaqların su təminatının yaxşılaşdırılması sahəsində xeyli iş görülüb. Bu ilin əvvəlindən bəri 251 kilometr uzunluğunda kanal, 55 kilometr dren kollektorları lildən təmizlənib, 49 hidrotexniki qurğu, 4 nasos, 1 nasos stansiyası əsaslı təmir edilib. Rayonun Pirili–Muradxan və Şilyan massivlərində təyinatı əkinçilik məqsədi ilə dəyişdirilmiş 10 min 600 hektar sahənin su təchizatının yaxşılaşdırılması məqsədilə Ərəbxana–Şilyan kanalının sukeçirmə qabiliyyətinin artırılması, Muradxan–Pirili kanalının tikilməsi layihələrində işlərin 60 faizi görülüb.

Ölkə Prezidentinin sərəncamına əsasən rayonun Axtaçı–Qarabucaq, Qoçulu, Garıs–Əyribənd və Bağman kəndlərində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə cari ilin birinci rübündə modul tipli sutəmizləyici qurğuların quraşdırılması işi başa çatdırılıb.



Yüz illərdir ki, kürdəmirlilərin əsas məşğuliyyətindən biri də heyvandarlıqdır. Rayonda bu sahənin və quşçuluğun inkişaf etdirilməsi sahəsində məqsədyönlü işlər görülür. Hazırda qara malın sayı 66,3 min başı, davarların sayı 138 min başı ötüb, heyvandarlıq məhsulları istehsalının dinamik artımına nail olunub. Bu ilin ötən dövründə 2223 tondan çox ət, 10 min 678 ton süd, 6 milyon 841 min ədəd yumurta istehsal edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə rayon üzrə ət istehsalı 7,1 faiz artıb, süd istehsalında da artım var.



Öyrəndik ki, dövlət praqramına uyğun olaraq, Kürdəmir süd emalı zavodunun Padarçöl heyvandarlıq kompleksinin genişləndirilməsi işləri davam etdirilir. Kompleksdə 2000 baş heyvanın saxlanılması nəzərdə tutulur. Hazırda fermada 1270 baş südlük "Holstein friz" cinsli inək bəslənilir, ayda orta hesabla 920 ton süd sağılır.

Tikinti-quruculuq, xüsusən, yol çəkilişi məsələləri də daim diqqət mərkəzindədir. Dövlət proqramının icrası ilə əlaqədar hazırda rayonda 34 kilometrlik Pirili–Muradxan–Sorsor avtomobil yolunda yenidənqurma işləri aparılır. Yolun çəkilişi əsasən başa çatdırılıb. Hazırda həmin yolda çiyinlərin 12 santimetr qalınlıqda optimal qum çınqıl materialı ilə bərkidilməsi işləri görülür və yol nişanlarının, məlumatverici lövhələrin quraşdırılması üçün hazırlıq işlərinə başlanılıb.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq olunmuş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na edilmiş "Əlavələr"in icrası ilə əlaqədar rayon ərazisində məskunlaşmış məcburi köçkün ailələrinin mənzil - məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə rayonun Xırdapay kəndinin ərazisində 563 məcburi köçkün ailəsi üçün 17 ədəd 4 mərtəbəli ictimai yaşayış binasının, 452 şagird yerlik məktəb binasının, 140 yerlik uşaq bağçasının, icma-klub, inzibati bina, həkim məntəqəsi və ATS binasının tikintisinə başlanılıb.

Bir neçə kəlmə də əhaliyə göstərilən xidmətin səviyyəsinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə. Əhalinin elektrik enerjisi, təbii qaz və içməli su ilə təminatının yaxşılaşdırılması rayon icra hakimiyyətinin daimi diqqət mərkəzindədir. Rayonun elektrik enerjisi təchizatının yaxşılaşdırılması sahəsində əhalinin elektrik enerjisinə olan tələbatını ödəmək məqsədi ilə 2019-cu ilin ilk aylarında Kürdəmir şəhəri ərazisində, Atakişili, Ərəbqubalı və Pirili kəndlərində 16 kilometr açıq naqillər SİP kabellə əvəz olunub, şəhər ərazisində, Atakişili, Sığırlı və Xırdapay kəndlərində 470 abonentin sayğacları müasir tipli sayğaclarla əvəz edilib.

"Azəriqaz" İstehsalat Birliyinin Təmir-Tikinti İdarəsi tərəfindən rayonun Qağacılı kəndində yenidənqurma işləri aparılıb, 77 nəfər abonentə diametri 76 millimetr olan borudan istifadə edilməklə 1600 metr yeni qaz xətti çəkilib, sayğaclar quraşdırılıb. Rayonun Qarabucaq qəsəbə, Qarabucaq və Qurdbayram kəndlərinin qazlaşdırılması ilə əlaqədar tikinti işlərinə başlanılıb.

...Maraqlıdır, bu yazının ilk abzasını son xəbərlə başlamalı olmuşduq. Son abzası isə ən son xəbərlə tamamlayırıq. Belə ki, mayın 22-də Kürdəmir RİH başçısı Ceyhun Cəfərov Ukraynanın paytaxtı Kiyev şəhərində müalicə alan Milli Qəhrəmanımız Zabit Quliyevin anasını ziyarət edib. Ərəbxana kəndində yaşayan Milli Qəhrəman Zabit Quliyevin ailəsi ilə çay süfrəsi ətrafında səmimi söhbət edən rayon rəhbəri onların problemləri ilə maraqlanıb.

İcra başçısı bildirib ki, Milli Qəhrəmanımız Zabit Quliyevin müalicəsi Azərbaycan Prezidenti cənab İlham Əliyevin birbaşa tapşırığı əsasında ciddi nəzarətə götürülüb. Azərbaycan Prezidenti şəhid ailələrinə, əlillərə, Qarabağ müharibəsi, 20 Yanvar, Çernobıl iştirakçılarına, milli qəhrəmanlara, İkinci dünya müharibəsi veteranlarına və ailələrinə, qaçqın və məcburi köçkünlərə daim böyük qayğı ilə yanaşır.

Elə bu yazıda sadaladığımız fakt və rəqəmlər də məhz insana, ölkə vətəndaşına göstərilən qayğının bariz nümunələridir.



***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***